

# ŞƏRQ qapısı

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 198 (24.335)

*26 oktyabr 2023-cü il, cümə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.gov.az

Qiyməti 30 qəpik


## Əsrə bərabər 20 il: müdrik lider, qalib sərkərdə
## İlham Heydər oğlu Əliyevin prezidentlik fəaliyyətinin 20 illiyi ilə bağlı tədbirlər keçirilib



*Naxçıvan Dövlət Tarix Muzeyində gənclərin iştirakı ilə ölkə başçısı cənab İlham Əliyevin Azərbaycan Prezidenti seçilməsinin 20-ci ildönümünə həsr olunmuş "Vətənə, xalqa, dövlətçiliyə xidmətin misilsiz 20 ili" adlı tədbir keçirilib. Əvvəlcə Ümummilli Lider Heydər Əliyev və şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.*

Naxçıvan Muxtar Respublikasının gənclər və idman naziri vəzifəsini müvəqqəti icra edən, nazir müavini Məcid Seyidov Prezident cənab İlham Əliyevin 20 illik hakimiyyəti dövründə Azərbaycanın keçdiyi misilsiz inkişaf yolundan danışıb. Qeyd olunub ki, 2003-2023-cü illər ölkəmizin tarixinə yüksəliş dövrü kimi daxil olub. Ümummilli Lider Heydər Əliyevin zəngin dövlətçilik təcrübəsinin əsaslarını dərindən mənimsəmiş, yüksək liderlik, siyasi bilik və iradəyə malik İlham Əliyevin əsas fəaliyyət qayəsi ölkəmizin siyasi-iqtisadi gücünü artırmaq, qüdrətli dövlətə çevirmək, xalqın rifahını yüksəltmək və ən nəhayət, ərazilərimizi bərpa etməkdən ibarət olub. Azərbaycanın iqtisadi və hərbi qüdrətinin, beynəlxalq nüfuzunun gücləndirilməsi yolunda böyük inam və qətiyyətlə çalışan dövlət başçısı Qarabağda qazanılmış Zəfərlə xalqı qarşısında ən dəyərli missiyanı yerinə yetirdi – işğalda olan torpaqlarımız bütünlüklə azad olundu və mahir siyasətçi üçrəngli bayrağımızın 30 ildən sonra Qarabağda, Şərqi Zəngəzurda yenidən dalğalanmasına nail oldu.

Qazi – "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)" Azərbaycan Respublikasının yubiley medalı, "Şücaətə görə", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə", "Vətən müharibəsi iştirakçısı" medalları ilə təltif olunan baş leytenant İbrahim Cəlilov ordu quruculuğu sahəsində görülən işlər, döyüş meydanında qazanılan qələbələr və öz döyüş xatirələri barədə danışıb.

Sonda tədbir iştirakçıları muzeyin ekspozisiyası ilə tanış olub.

* * *

Babək Rayon İcra Hakimiyyətinin və rayon Meliorasiya və Su Təsərrüfatı İdarəsinin birgə təşkilatçılığı ilə keçirilən tədbirdə şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbiri giriş sözü ilə açan Babək Rayon İcra Hakimiyyəti başçısının müavini Səbinə Əliyeva bildirib ki, son 20 ildə Azərbaycan dövlətçilik tarixinin təməlində Ulu Öndərin başlatdığı və Prezident cənab İlham Əliyevin inamla davam etdirdiyi uzaqgörən daxili və xarici siyasət xətti dayanır. Cənab İlham Əliyev təkcə dünənin və bu günün deyil, həm də gələcəyin lideridir. 44 günlük haqq zəfərində **"Qarabağ Azərbaycandır!"** söyləyən Müzəffər Ali Baş Komandan ata vəsiyyətinə əməl edərək torpaqlarımıza azadlıq rəmzimiz olan üçrəngli bayrağımızı sancdı.



Babək Rayon Meliorasiya və Su Təsərrüfatı İdarəsinin rəisi Rüstəm Rüstəmov, idarənin Həmkarlar İttifaqı Komitəsinin sədri Əfsanə İsmayılova və "Şərq qapısı" qəzetinin əməkdaşı Fariz Əhmədov çıxış edərək bildiriblər ki, dövlət başçısının xalq qarşısında verdiyi bütün vədləri uğurla yerinə yetirməsi, Onun hər bir azərbaycanlıya və ölkəmizin problemlərinə böyük həssaslıqla yanaşması isə Prezident cənab İlham Əliyevin ***"Mən hər bir azərbaycanlının Prezidenti olacağam"*** vədinin mütləq surətdə reallığını bir daha təsdiqləyir.

Naxçıvan Muxtar Respublikası Gənclər Fondunda "Əsrə bərabər 20 il: müdrik lider, qalib sərkərdə" mövzusunda tədbir keçirilib.



Tədbirdə əvvəlcə Ümummilli Lider Heydər Əliyevin və ölkəmizin ərazi bütövlüyü uğrunda canlarından keçən şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Azərbaycan Respublikası Milli Məclisinin deputatı, Naxçıvan Muxtar Respublikası Gənclər Fondunun icraçı direktoru Cəbi Quliyev tədbiri giriş sözü ilə açaraq Ümummilli Liderimiz Heydər Əliyev siyasi kursunu uğurla davam etdirərək son iyirmi ildə qazanılan misilsiz nailiyyətlərə imza atan, müdrik siyasəti, qətiyyəti və qüdrətli liderliyi nəticəsində ərazi bütövlüyümüzü bərpa edən Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin misilsiz xidmətlərindən bəhs edib.

Qeyd olunub ki, 20 il dövlətə və xalqa sədaqətlə xidmət etmək, insanların böyük hörmətini qazanmaq, dünyanın sülhsevər vətəndaşlarının sevimlisinə çevrilmək rəhbər üçün böyük şərəf və dəyərli qiymətdir. Azərbaycan Prezidenti bu şöhrəti və dəyəri öz fəaliyyəti, xalqına və insanlara xidməti ilə qazanmışdır. 20 illik bir yolun başlanğıcı çox çətin olsa da, dayanacağı uğurlu, keçiləcək məsafələri işıqlı və inamlıdır. Cənab İlham Əliyevin keçdiyi bu yol böyük qürur doğurur. O bu yolda həmişə xalqı ilə, dünyanın dəyərli insanları ilə bir olub, Vətəninin mənafeyini qoruyub, xalqına sədaqətlə xidmət etməkdən, torpaqlarını qorumaqdan, Azərbaycanı ucaltmaqdan və şöhrətləndirməkdən şərəf duyub, yeni uğurlara, zəfərlərə yollar açıb.

Sonra Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatı Aparatının şöbə müdiri Rail Tağızadə "20 ilin zəfər salnaməsi", fəal gənc Zeynəb İlyasova "Prezidentimiz Azərbaycan gəncliyinin ilham mənbəyidir" mövzularında çıxış ediblər.

Sonda "İlham" sənədli filmi nümayiş etdirilib.

**Xəbərlər şöbəsi**

## Monitorinq qruplarının üzvləri üçün təlim



*Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin və Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin birgə təşkilatçılığı ilə rayon, şəhər icra hakimiyyətləri yanında yaradılmış Gender zorakılığı və uşaqlara qarşı zorakılıq üzrə monitorinq qruplarının üzvləri üçün təlim keçirilib.*

Təlimi giriş sözü ilə açan Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidova təlimin əhəmiyyətindən bəhs edərək bildirib ki, müvafiq qanunvericiliyə uyğun olaraq Gender zorakılığı və uşaqlara qarşı zorakılıq üzrə etibarlı monitorinq mexanizminin yaradılması ilə bağlı tapşırıqlar verilmişdir. Bu məqsədlə cari il ərzində muxtar respublikanın rayon (şəhər) icra hakimiyyətləri yanında məişət zorakılığının qarşısının alınmasına məsul olan dövlət orqanlarının nümayəndələrindən ibarət monitorinq qrupu yaradılmış və fəaliyyətə başlamışdır. Çıxışda Gender zorakılığı və uşaqlara qarşı zorakılıq üzrə etibarlı monitorinq mexanizminin əhəmiyyətindən bəhs olunub.

Sonra Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin Aparat rəhbəri Ceyran Rəhmətullayeva təlimin keçirilməsində yaradılan şəraitə görə minnətdarlıq edib. "Məişət zorakılığından zərərçəkmiş şəxslərlə sosial işin aparılması prinsipləri" mövzusunda çıxış edərək bildirib ki, Gender zorakılığı və uşaqlara qarşı zorakılıq üzrə monitorinq qrupu beynəlxalq təcrübələrə əsaslanaraq yaradılan Azərbaycan modelidir. Ceyran Rəhmətullayeva sosial işin vacibliyini vurğulayaraq qeyd edib ki, bu sahə Naxçıvan Muxtar Respublikasında yeni olduğuna görə daha böyük, daha geniş akademik səviyyədə olan işçi qüvvəsi, yəni sosial işçi tələb olunur və pedaqoqlar, müəllimlər və psixoloqlar yaxşı sosial işçilərdir. Ümumiyyətlə, açıq formada zorakılıq hallarının olmadığını bildirən aparat rəhbəri latent formada, yəni gizli formada olan tərəflərin, qarşısının alınması üsulları barədə məlumat verib.

Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin Hüquq şöbəsinin müdiri Taliyə İbrahimova "Məişət zorakılığının qarşısının alınması mexanizmləri" mövzusunda slayd vasitəsilə çıxış etdi. Çıxışda bildirilib ki, məişət zorakılığı və onun növləri, qanunun şamil edildiyi şəxslər, cinayət xarakterli olmayan məişət zorakılığı barədə şikayət və onların aparılması, yerli icra hakimiyyəti orqanlarının qəbul etdiyi qərarlar, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində zorakılıqla bağlı təyin olunan cərimələr, təkrar zorakılıq, mühafizə orderi – qısamüddətli və uzunmüddətli orderlərin təyin olunması ilə bağlı sosial xarakterli, qabaqlayıcı maarifləndirici tədbirlərin görülməsi, broşürlərin hazırlanması, panellərin reklamı şərtdir. Eyni zamanda yardım mərkəzlərinin vacibliyi, orada qalma müddəti, təhlükəsizliyin təmin olunmasını qeyd edən Taliyə İbrahimova Məlumat Bankının əhəmiyyəti haqqında ətraflı məlumat verib.

Babək Rayon İcra Hakimiyyəti başçısının müavini, Gender zorakılığı və uşaqlara qarşı zorakılıq üzrə monitorinq qrupunun sədri Səbinə Abbasova Babək rayonunda görülən işlər haqqında ətraflı çıxış edib.

Təlim iştirakçıları tərəfindən müvafiq məsələlər ilə bağlı geniş müzakirələr aparılıb, mövzu ilə bağlı maarifləndirici materiallar paylanılıb, təlim iştirakçıları gələcəkdə bu sahədə səmərəli fəaliyyət göstərəcəklərini bildiriblər.

**Gülcamal TAHİROVA**

## Naxçıvan Sahibkarlar Konfederasiyasının İdarə Heyətinin iclası olub

*Naxçıvan Biznes Mərkəzində keçirilən Naxçıvan Muxtar Respublikası Sahibkarlar Konfederasiyasının iclasında şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.*



Tədbiri giriş sözü ilə açan "Cahan Holdinq" Şirkətlər Qrupunun prezidenti, Naxçıvan Muxtar Respublikası Sahibkarlar Konfederasiyasının İdarə Heyətinin sədri Vüqar Abbasov Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 20 illik fəaliyyəti ilə bağlı Sahibkarlar Konfederasiyası adından Azərbaycan Respublikası Prezidentinə ünvanlanan təbrik məktubu haqqında məlumat verib.

Tədbirdə Sahibkarlar Konfederasiyasının fəaliyyəti, iş planının yenidən hazırlanması və cari məsələlər haqqında müzakirələr aparılıb. Müzakirələr zamanı Naxçıvan Baş Gömrük İdarəsi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Dövlət Vergi Xidməti ilə birgə əməkdaşlığın yaradılması haqqında təkliflər dinlənilib.

Tədbirdə "Cahan Holdinq"in əməkdaşı Ulduz Əliyeva Konfederasiyanın yeni loqosunu təqdim edərək loqo haqqında məlumat verib.

Sonda müzakirə edilən məsələlər haqqında sahibkarların təklifləri dinlənilib.

**Bülbül QULİYEVA**

## Məhkəmə təcrübəsi:
## *mülki və cinayət qanunvericiliyinin aktual problemləri*



Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illiyi münasibətilə Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin təşkilatçılığı ilə Naxçıvan Dövlət Universitetinin Hüquqşünaslıq ixtisası üzrə təhsil alan tələbələri üçün "Məhkəmə təcrübəsi: mülki və cinayət qanunvericiliyinin aktual problemləri" mövzusunda elmi-nəzəri seminar keçirib.

Tədbiri giriş sözü ilə açan universitetin Beynəlxalq münasibətlər və hüquq fakültəsinin dekanı Yusif Hüseynov Ali Məhkəmə ilə universitet arasında imzalanmış birgə əməkdaşlıq haqqında Anlaşma memorandumunu qeyd edərək memoranduma uyğun olaraq keçirilən belə tədbirlərin tələbələrin ixtisaslı kadr kimi yetişməsində əhəmiyyətini vurğulayıb.

Sonra tələbələr üçün Ali Məhkəmənin Mülki Kollegiyasının sədri vəzifəsini icra edən Əli Allahverdiyev tərəfindən "Vərəsəlik hüququna dair problemli məsələlər" mövzusunda seminar keçirilib. Tələbələrə Azərbaycan Respublikasının mülki qanunvericiliyində vərəsəlik hüququ, mirasın qəbulu, müqavilənin ləğvi və sair mövzularda ətraflı məlumat verilib.

Daha sonra Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin Cinayət Kollegiyasının sədri vəzifəsini icra edən İlqar Mirzəyev "Cinayətlərin çoxluğunun bəzi aspektləri" barədə seminar mövzusu ilə çıxış edərək cinayət işləri üzrə tövsif, sübutetmə və məhkəmə istintaqının aktual problemləri və onların həlli yolları barədə ətraflı izahlar verib.

Təlimin gedişində iştirakçıları maraqlandıran suallar cavablandırılıb, mövzular barədə fikir mübadiləsi aparılıb.

***Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin mətbuat xidməti***

# VƏTƏN müharibəsinin möhtəşəm ZƏFƏRİ

**Azərbaycan Respublikasının Prezidenti İlham ƏLİYEV:** ***Mənim üçün torpaqların azad edilməsindən daha ümdə vəzifə heç vaxt olmamışdır. Bütün prezidentlik dövrümü mən buna həsr etmişəm. Hər bir qərarın arxasında bu məqsəd, bu hədəf dayanmışdı... Deyirdim ki, hər birimiz hər gün qələbəni yaxınlaşdırmalıyıq. ...Yaxınlaşdırdıq, hazırlaşdıq, gəldik düşməni məğlub etdik, məhv etdik. Gəlmişik və burada dayanmışıq. Müzəffər Ordunun Ali Baş Komandanı kimi dayanmışam qədim Azərbaycan torpağında və heç kim bundan sonra bizi buradan çıxara bilməz.***

## Bütöv Azərbaycan uğrunda 44 gün + 23 saat 43 dəqiqə



Lap nağıllarda deyildiyi kimi, 40 gün, 40 gecə keçdi. Zalım divlə döyüşən cəsur döyüşçü onun kürəyini yerə vurub məğlub etdi. Divin əsarətdə saxladığı torpaqların üstündən qara buludlar çəkildi, Günəş doğdu. Bayquşların uladığı, çaqqalların dolaşdığı torpaqlarda qurdlar, aslanlar gəzməyə, səmalarında qartallar, şahinlər süzməyə başladı. Həyat yenidən qayıtdı.

### *44 gün. Böyük Qayıdış: “Qarabağ Azərbaycandır!”*

27 sentyabr 2020-ci il... Hər şey birdən başladı sanki. Gözümüzü yumub açdıq və özümüzü yanıb qovrulduğumuz bir həsrətin son addımlığında gördük. Yenilməz Azərbaycan əsgəri illərdir, əlində hazır saxladığı silahın tətiyini çəkdi, işğal olunmuş torpaqlarımızın azadlığı uğrunda Vətən müharibəsi başladı. “Qarabağ Azərbaycandır!” nidasıyla azadlıq yürüşü, qisas savaşı başladı. O gündən hər bir azərbaycanlının, qəlbi Vətən eşqi ilə döyünənlərin qulağı səsdə, gözü yolda qaldı. Ordumuzun bütün cəbhəboyu başladığı əks-hücum əməliyyatı hamının diqqətində hər kəs yeni zəfər xəbərləri gözlədi. Qarabağa “Böyük Qayıdış”ın yeni və nəhəng addım səslərinə qulaq verdi...

***“Biz bu gün xalqımızın və dövlətimizin yeni tarixini yazırıq, şanlı tarixini yazırıq. Biz bu gün tarixi ədaləti bərpa edirik. Çünki Qarabağ torpağı bizim əzəli tarixi torpağımızdır”.***

### *Qabağına yüyürər yol, Vətənə gələndə: döyüşkən türk ruhu*

Lələtəpə, Cocuq Mərcanlı... Bir zamanlar bu doğma toponimlərin adı çəkiləndə illərdir, köksümüzdə gəzdirdiyimiz yaranın qaysağı qoparaq qəlbimizi göynədirdi. Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə 2016-cı ilin Aprel döyüşlərində qüdrətli ordumuzun azad etdiyi Lələtəpə zirvəsi Qarabağa dönüşün və məskunlaşmanın istinadgahına çevrildi və “Böyük Qayıdış” Cocuq Mərcanlıdan başladı.

Azərbaycan əsgəri o torpaqda qoyduğu əmanəti almaq üçün geri döndü. Bu müharibə indiyədək tarixdə rast gəlinməyən bir savaş kimi dünya savaş tarixinə yazıldı. Döyüşkən türk ruhu, həmişə müasir savaşda tətbiq edilən türk taktikası XXI əsrdə də dünyanı heyrətləndirdi. Halbuki bu əsrdə əldə edilən savaş və sivil texnikaların, hər cür nanotexnologiyaların, robotların, kiborqların, yeniliklərin, mümkün olmayanı reallaşdıran elmlərin fonunda dünyanı heyrətləndirmək elə də asan deyil. Amma Azərbaycan əsgəri bunu bacardı və təkcə Vətən sevgisini deyil, həm də döyüş ruhunu dünyaya nümayiş etdirə bildi.

Cocuq Mərcanlıdan başlayan yol bizi daha irəli apardı. Düşmənin illərdir, möhkəmlənməyə çalışdığı mövqelər darmadağın edilərək yeni qələbə, zəfər tarixləri yazıldı. Bu cəsur həmlələr dayanmadan, inamla davam etdi.

***“Mən demişdim ki, Cocuq Mərcanlı ləyaqətimizin rəmzidir, iradəmizin rəmzidir və Cocuq Mərcanlı bizim qayıdışımızın rəmzidir. Mən demişdim ki, qayıdışımız indi başlayır. Mən əminəm ki, o ərazilərdən köçürülənlərin hamısı geri qayıdacaq”.***

### *Məcrasına sığışmaz sel, Vətənə gələndə: Azərbaycan döyüşdü...*

Azərbaycan Ordusunun ayaq səsləri Qafqazı lərzəyə saldı. Dünya Azərbaycan əsgərinin qələbəsini izlədi. Azərbaycan isə döyüşdü; cəbhədə, siyasət meydanında, informasiya məkanında. Və hər üç müharibənin qalibi oldu.

Azərbaycan döyüşdü... Məcrasına sığışmayan selə dönən ordumuz düşmənin tör-töküntülərini silib-süpürüb apardı. Döyüşdə istifadə olunan ən müasir silahlar öz yerində, bu otuz ildə heç bir texnologiyanın istehsal edə bilmədiyi, nə ermənimin, nə onun riyakar havadarlarının sahib ola biləcəyi bir silahla döyüşə girdi. Cəsarətdən, milli qeyrətdən, illərin basdırılmış Vətən həsrətindən boy alan silahla nişan aldı hədəfləri. Azərbaycan əsgəri o silahı barmağı ilə deyil, ürəyi ilə çəkdi. O səngərdəki əsgərin sirri elə o məşhur nağılda deyildiyi kimi, hər dəfə doğma torpağına toxunmasında idi, onu yenilməz edən də bu oldu. Vətən torpağında gedən bu müharibə Ermənistana qarşı milli birlik mübarizəsi oldu.

***“İşğal edilmiş torpaqlarda Azərbaycan bayrağı qaldırılır! Onların səngərlərində Azərbaycan əsgəri dayanır! Onların tanklarını biz sürürük! Onların digər silahlı texnikaları bizim əlimizdədir, yük maşınları bizim əlimizdədir! Biz xilaskar missiyamızı icra edirik və edəcəyik!”***

### *Saçına daraq olar yel, Vətənə gələndə: gələcəyin taktikası*

Ukraynalı hərbi analitik Oleq Jdanov 44 günlük müharibə haqqında qeyd edirdi: *“Kəşfiyyat, hərbi məqsədlər və zərbə üçün PUA-lardan istifadə çox uğurludur. Bu gələcəyin taktikasıdır. Azərbaycan bütün dünyaya gələcəyin silahlarını və döyüş texnikasını nümayiş etdirir. Azərbaycan Ordusu, sözün birbaşa mənasında, Ermənistan ordusuna dəhşətli kabus yaşadır”.*

Qartal kimi Qarabağa doğru süzülən igidlərimizin nərəsindən düşmən lərzəyə gəldi. Şimşək atlı oğulların saçlarına daraq oldu Vətən yelləri. Hər şey o qədər sürətlə baş verdi ki, ürəyimiz hansı duyğuları yaşayacağını bilmədi. Amma azadlıq, qələbə duyğusu hamısını üstələdi. Sinəsini düşmən gülləsinə sipər edən igid oğullarımızın şəhidlik məqamına üzülsək də, qürurla, göz yaşlarımızla alqışladıq, qarşıladıq onları. Vətəni əmanət etdiyimiz igidlərimizi Tanrıya əmanət etdik.

***“Bu gün burada olmağımızın əsas səbəbkarı Azərbaycan xalqıdır, Azərbaycan övladıdır. Elə bir gənc nəsil yetişdirdik ki, Vətən, torpaq uğrunda ölümə getməyə hazır idi və ölümə də gedirdi... Azərbaycan əsgəri, zabiti əsl qəhrəmanlıq, vətənpərvərlik, fədakarlıq göstərmişdir”.***

### *Ayağına düşər gül, Vətənə gələndə: gerçək qəhrəmanlıq xəzinəsi*

Vətən, sadəcə, müəyyən sərhədləri olan coğrafi bir məkan deyil. Vətən xüsusi sevgi və hörmətə layiq müqəddəs torpaqdır. Dünyada ən böyük qəhrəmanlıqlar da Vətən naminə edilib. Görkəmli şəxsiyyətlər, qorxmaz sərkərdələr, cəsur igidlərin çiynində yüksəlib bu Vətən!

Vətən o zaman yaşayır ki, onun uğrunda canından keçən qəhrəman övladları olsun. Bu gün neçə-neçə igid oğlu, qızı ilə fəxr edir Azərbaycan. Çünki ən böyük xəzinə qızıl deyil; nə ləl-cəvahirat, nə də sənət əsərləri. Dünyəvi şeylər, eynilə fəsillər kimi gəlib keçicidir. Amma gerçək qəhrəmanlıq xəzinəsinin işığı əsla solmaz.

Sənin səmanda bayrağımız dalğalansın – deyə, yenidən sənə qovuşaq deyə çox səbir etdik, çox dua etdik. Və nəhayət, səbrimizin, duamızın, mübarizəmizin cavabını aldıq. Azərbaycan əsgərinin ayaq səsləri bütün ağrını, kədəri, nisgili bitirdi.

***“Biz öz doğma torpağımızda döyüşürük, vuruşuruq. Bizim ərazi bütövlüyümüz bərpa edilməlidir və biz haqq yolundayıq. Bizim əsgərimiz xilas əsgəridir. Çünki öz doğma dədə-baba torpağını işğalçılardan azad edir”.***

### *Gözdən həsrət yaşını sil, Vətənə gələndə: Vətən nəğməsi*

Bəzən heç bir cümlə gerçək duyğuları əvəz edə bilmir, ona görə insan bəzən ən dərin duyğuları yaşayıb hiss edərkən danışa bilmir, izah edə bilmir. İnsan qəlbinin ən böyük nəğməsi Vətən nəğməsidir. Bu nəğməni hərə bir cür oxuyur. Onu döyüş harayı, Koroğlu nərəsi, qılınc zərbəsi ilə də oxuyanlar olub, bulaq pıçıltısı, qadın isməti, Nigar vəfası, Həcər sədaqəti ilə oxuyanlar da. Bu nəğmənin hər kəlməsi Vətəndir, hər notu, hər səsi Vətən sevgisi ilə yoğurulmuş əzəli və əbədi bir musiqidir. Hər zəfər xəbəri qəlbimizi fərəhlə, gözlərimizi sevinc və qürur göz yaşları ilə doldurdu. İllərin həsrəti sona çatdı. Azərbaycan bayrağı vüqarla əzəli və əbədi torpaqlarımızda dalğalanır. Əsən yellər bayrağımızı yeni sabahlara, yeni zəfərlərə doğru dalğalandırır.

***“Azərbaycan xalqı bu Qələbəni öz qanı, canı bahasına əldə etmişdir. Bu gün burada qaldırdığım Bayraq burada əbədi dalğalanacaq və biz burada əbədi yaşayacağıq”.***

### *Gələndə oğul kimi gəl, Vətənə gələndə: torpaq qanla suvarılanda*

***“İkinci Qarabağ müharibəsində Naxçıvan ordusunun hərbçiləri – həm xüsusi təyinatlılar, həm digər birləşmələrin hərbçiləri fəal iştirak etmişlər və şəhidlər vermişlər, böyük fədakarlıq göstərmişlər”.***

Silahlı Qüvvələrin Ali Baş Komandanı və gücünə, ədalətinə, mərhəmətinə heyran olduğum Azərbaycan əsgəri bu xalqın ümid, güman yerinə çevrildi. Və bir də bu qələbəyə qanı və canı ilə pay verən şəhidlərimiz! Torpaq uğrunda tökdüyünüz qanınız yerdə qalmadı! Əmin olun ki, bu xalq sizi heç zaman unutmayacaq!

Torpaq qanla suvarılanda Vətən olur. Bu torpaq, bu Vətən uğrunda minlərlə igid vətən oğlu, vətən qızı öz canından, qanından keçib, bu Vətəni qanıyla suvarıb. Sərt qayalarımız, bərəkətli torpaqlarımız onların qanıyla suvarıldıqca şəhid qoxulu Vətən torpağı daha da qüvvətlənir, güclənir və müqəddəsləşir. Hər biri əbədi məşələ çevrilərək yurdumuzun gələcəyinə işıq salır. Bir ölüb min diriləriк. Şəhid atasının əlini öpən müdavimlər, şəhid evlərinə qədər düzülən bayraqlar. Sonsuz təvəkkül, böyük inam, tükənməz sevgi. Nə haqqınızı ödəyə bilər, nə də sizi geri qaytara bilərik.

***“Qələbəni əldə edən əsgərdir, zabitdir. O gedir, o, sinəsini qabağa verir, o, ölümə gedir və Bayrağı da qaldıran odur. Onların qəhrəmanlığı bizim yaddaşımızdan heç vaxt silinməlidir və silinməyəcək. Bu gün onların ruhu şaddır ki, biz buradayıq, siz buradasınız”.***

### *+ 23 saat 43 dəqiqə: “Üçüncü Qarabağ müharibəsi”*

Biz ordusu olan dövlət, ölkə deyilik. Biz xalqı ordu olan ölkəyik. Əgər belə olmasa idi, 30 illik yolu 44 günə gedə bilməzdik. Ali Baş Komandan ***“Mənim sözüm sözdür”***, – deyərək elə bir güclü ordu yaratdı ki, bu gün Azərbaycan Silahlı Qüvvələri istənilən vəzifəni şərəflə yerinə yetirə bilər və bunu döyüş meydanında sübut etdi. Həm Vətən müharibəsi dövründə cəmi 44 gün ərzində düşməni kapitulyasiya aktına imza atmağa, həm də bu ilin sentyabr ayında cəmi 23 saat davam edən antiterror əməliyyatında düşməni ağ bayraq qaldırmağa məcbur edərək isbat etdi.

Azərbaycan Ordusunun Qarabağda keçirdiyi lokal xarakterli antiterror tədbirləri haqqında israilli hərbi ekspert Sergey Auslender deyir: *“Üçüncü Qarabağ müharibəsi”, həm də sonuncu. Müasir müharibələr belə aparılır. Düşməndən texnoloji cəhətdən bir nəsil üstün olanda elə ilk zərbə ilə onu kor edib çaşdırırsan, artıq düşmənin sonrakı müqaviməti mənasız olur. Yuxarıdan hardansa yalnız raketlər və kamikadze dronlar gəlir. 23 saat 43 dəqiqə – yəqin ki, bu dünya rekordudur. Azərbaycan Ordusu bunu etdi”.*

### *10 il irəli: Siz bacardınız, cənab Prezident!*

Cənab Prezident 2011-ci ildə “Rossiya 24” kanalına müsahibəsində jurnalistin sualına cavab olaraq dedi: ***“Əlimdə imkanım olsa idi, gələcəyə gedərdim və hətta deyərdim 10 il irəli. Baxardım ki, mənim düşündüyüm alınıb, yoxsa yox və nə qədər alınıb. Bax bunu böyük məmnuniyyətlə edərdim”.*** Bu, böyük strateqin, dünya səviyyəli diplomatın və qətiyyətli, uzaqgörən siyasətçinin gələcəyə hesablanmış strateji gedişlərinin ən böyük bəyanlarından biri idi. Siz bacardınız, cənab Prezident, Ali Baş Komandan! 10 ildən də qısa bir müddətdə bunu bacardınız! Biz qayıtdıq!

44 günlük Vətən müharibəsi fasiləsiz informasiya savaşında ən cəsur sərkərdə olan Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin dünyanın aparıcı kütləvi informasiya vasitələrinə verdiyi müsahibələr, zərgər dəqiqliyi ilə ölçülüb-biçilmiş hərbi gedişatlar, Azərbaycan xalqına hər müraciətində simasında hiss etdiyimiz qələbədən doğan sevinc, namərd düşmənin əməllərindən qəzəb, əsgər və zabitlərin taleyindən nigaranlıq, ordusunun qüdrətindən məğrurluq, şəhidlərin xatirəsinə hörmət hissləri, xalq-ordu birliyi ilə yaddaşımıza həkk olundu.

***“Müharibə başa çatandan sonra nəinki bölgə, həm də dünya dəyişəcək. Hər kəs bizim gücümüzü gördü. Biz bu bölgədə yeni strateji mənzərə, strateji baxış yaratmalıyıq. Müharibədən sonra Azərbaycanın, bölgənin yeni dövrü başlanacaq”.***

### *Son söz yerinə: tarixi qaliblər yazır*

Tarix kitabları qəhrəmanlar və onların fədakarlıqlarıyla doludur. Amma o hekayələri kim yazır? Müzəffər Sərkərdə, qalib ordu və Vətən uğrunda canından, qanından, arzularından, xəyallarından keçənlər... Şəhidlər...

General-mayor Polad Həşimovun təbəssümü, Xudayar Yusifzadənin “Xudayar təsnifi”, 19 yaşlı Cəbrayıl Dövlətzadənin erməni generalını əlləri ilə boğmağa güc verən düşmənə nifrəti, 18 yaşında didərgin düşdüyü Qubadlı uğrunda can verən polkovnik, Milli Qəhrəman Şükür Həmidovun Vətən sevgisi, Muxtar Qasımlının bütün şəkillərində parlayan həyat dolu gözləri, uşaqlıqları əllərindən alınan, həyatlarının hələ başlanğıcında bu dünyadan qoparılan uşaqların cansız bədənləri ilə yazıldı Zəfər tarixi...

*...Və bir də Gəncəyə endirilən raket zərbəsindən sonra təbəssümlə kameralara baxan 5 yaşlı Bəxtiyarın cəsarəti, ata-ana qayğısından həmişəlik məhrum olmuş Sevilin, Hüseynin, Nilayın baxışları, hər bir əsgəri və hərbçini öz qardaşı, oğlu kimi görən insanların milli təəssüb və qeyrəti ilə yaddaşımıza həkk olundu 44 günlük Vətən müharibəsi... Və Prezident, Ali Baş Komandan cənab İlham Əliyevin möhtəşəm sitatı ilə:* ***“Qarabağ Azərbaycandır və nida işarəsi”.***

**Məmməd BABAYEV**

*Bu gün ölkəmizdə insan hüquqlarının ayrılmaz tərkib hissəsi olan qadın hüquqları və gender bərabərliyinin təmin edilməsi dövlət siyasətinin prioritet istiqamətlərindən birini təşkil edir. Müstəqil dövlətimizdə gender siyasətinin əsasını qoyan Ümummilli Liderimiz Heydər Əliyevin misilsiz tarixi xidmətlərindən biri də milli qadın hərəkatının bu gün ölkəmizdə inkişaf etdirilərək mütəşəkkil xarakter alması, dövlət qadın siyasətinin hüquqi bazasının formalaşdırılması, qadınların ictimai-siyasi həyata, qərarvermə proseslərinə fəal cəlb olunması, cəmiyyətin aparıcı qüvvəsinə çevrilməsinin təmin edilməsidir. Dahi şəxsiyyətin layiqli siyasi varisi olan dövlət başçımız cənab İlham Əliyevin 20 illik prezidentlik fəaliyyəti dövründə həyata keçirdiyi məqsədyönlü siyasət nəticəsində ölkəmizdə gender bərabərliyinin təmin olunmasına, qadınların ictimai həyatın bütün sahələrində kişilərlə çiyin-çiyinə fəaliyyət göstərməsinə nail olunmuşdur. Ölkəmizin birinci xanımı, respublikanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın ictimai-siyasi fəaliyyəti ilə müasir Azərbaycan qadın hərəkatının liderinə çevrilməsi, xüsusilə də işğaldan azad olunmuş ərazilərin yenidən dirçəldilməsində, "Böyük Qayıdış" prosesinin uğurla reallaşdırılmasında dövlət başçımızın əsl silahdaşına, çiyindaşına çevrilməsi buna ideal nümunədir. Azərbaycan qadınlarının müxtəlif illərdə keçirilən qurultayları və forumları isə ölkədə qadın hərəkatının istiqamətləndirən, ideya və stimul verən, birbaşa gələcək hədəflərə çatdıran lokomotiv rolunu oynamışdır. Ölkəmizdə qadın hərəkatının əsasını qoymuş Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyi, eyni zamanda müstəqil Azərbaycanın ilk Qadın Qurultayının 25 ili münasibətilə təşkil edilən Azərbaycan Qadınlarının VI Qurultayı da bu missiyanı uğurla reallaşdırması ilə tarixə həkk oldu. Tədbirdə 600-ə yaxın qadın – Türkiyə, Özbəkistan və Tacikistanın dövlət rəsmiləri, deputatlar, dövlət və qeyri-hökumət, eləcə də beynəlxalq təşkilatların və xarici dövlətlərin Azərbaycandakı səfirliklərinin nümayəndələri, görkəmli ictimai-siyasi xadimlər iştirak ediblər. Muxtar respublikamız da 15 nəfərlik nümayəndə heyəti ilə burada layiqincə təmsil olunub. Redaksiyamıza dəvət etdiyimiz qonaqlarla söhbətimiz də elə bu mövzuda olacaq.*

*Redaksiyamızın qonaqları*

# Azərbaycan Qadınlarının VI Qurultayı:
## *qalibiyyət ruhundan, əzmkar iradədən doğan gələcək inkişaf hədəfləri*



***– Ramilə xanım, hər birinizi salamlamaqla ilk sualı sizə ünvanlamaq istərdim. Belə bir möhtəşəm tədbirdə Naxçıvanın da layiqincə, uğurla təmsil olunması muxtar respublikamıza göstərilən yüksək diqqətin təzahürü, eyni zamanda dövlət qadın siyasətinin ölkəmizi bütünlüklə əhatə etməsinin, muxtar respublikamızda da uğurla həyata keçirilməsinin nəticəsi idi.***

***Ramilə Seyidova – Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri:*** – Mehriban xanım, əvvəla, dəvətiniz üçün təşəkkür edirəm. Çox haqlı olaraq vurğuladığınız kimi, Ulu Öndərimizin yüzillik yubileyi kimi əlamətdar bir dövrdə keçirilən qurultaya muxtar respublikamızın qadınları da, necə deyərlər, əliboş getməmişdi.

Muxtar respublikada da Ümummilli Liderimizin müəyyənləşdirdiyi dövlət qadın və gender siyasəti ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Naxçıvan qadınları ən müxtəlif sahələrdə fəaliyyət göstərirlər. Bunu statistik rəqəmlər də təsdiq edir. Belə ki, muxtar respublika əhalisinin 50,1 faizi, işləyən təbəqənin 33 faizi qadınların payına düşür. Bu gün qadınların siyasi fəallıqları da özünü müsbət yöndə göstərməkdədir. Hazırda Yeni Azərbaycan Partiyası muxtar respublika təşkilatı üzvlərinin 25605-i, yaxud 44,14 faizi qadındır ki, onların da 110-u ərazi ilk partiya təşkilatının sədridir. Muxtar respublikanın idarə və təşkilatlarında onlarla qadın rəhbər vəzifələrdə işləyir. Hər il təhsil müəssisələrinə daxil olan abituriyentlərin 51 faizə yaxınını qızlar təşkil edir ki, bunların da içərisində 500-700 intervalında bal toplayanlar üstünlük təşkil edir. Naxçıvan qadınları elmi fəaliyyətləri ilə də Azərbaycan elminə mühüm töhfələr verir. Belə ki, muxtar respublikada 1 professor, 6 elmlər doktoru, 60-dan artıq dosent, 100-dən artıq fəlsəfə doktoru olan qadınlar vardır.

***– Bəs muxtar respublikada davamlı iqtisadi inkişaf əsasında iqtisadiyyatın rəqabət qabiliyyətliliyinin, inklüzivliyinin və sosial rifahın yüksəldilməsində qadınlarımızın rolunun artırılması istiqamətində nə kimi işlər görülür?***

– Milli və xalq tətbiqi sənəti növləri üzrə qadınlar arasında özünüməşğulluğun inkişaf etdirilməsi, onların rifah hallarının yüksəldilməsi üçün istedadlı qadınların əl işlərindən ibarət sərgi-satışlar, səyyari sərgi-satışlar, satış-yarmarkaları təşkil olunur, mədəni-kütləvi tədbirlərdə onların sənət əsərləri nümayiş etdirilir. Təkcə cari il ərzində müvafiq sərgilərdə və satış yarmarkalarında 53 istedadlı şəxsin 7365 manat dəyərində 724 əl işi satılaraq iş sahiblərinə ödənilmişdir. Naxçıvan Muxtar Respublikasında qadınların özünüməşğulluqlarının artırılması, eyni zamanda mikrosahibkarlıq fəaliyyətlərinin genişləndirilməsi üçün qrant layihələr həyata keçirilir. Belə ki, ötən 4 il ərzində Azərbaycan Mikromaliyyə Assosiasiyası və Naxçıvan



Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən 4 layihə icra olunmuş, layihələr çərçivəsində aztəminatlı və sağlamlıq imkanları məhdud olan 192 qadına 156250 manat dəyərində sərmayə kapitalı verilmiş, maliyyə dəstəyi gösərilmişdir. Həmçinin muxtar respublikada tənha, ahıl qadınlara sosial xidmətlər göstərilir, şəhid, əlil, aztəminatlı, tək ailə başçısı olan qadınların problemlərinin həlli ilə əlaqədar tədbirlər görülür, onların məşğulluğunun təmin olunması, müvafiq peşəyə yiyələnmələri, istedad və bacarıqlarının inkişaf etdirilməsinə nail olmağa çalışırıq.

Mehriban xanım, qadınlarımızın ən müxtəlif sahələrdə fəaliyyətlərindən söhbət gedirsə, muxtar respublika qadınlarının fəaliyyətinin dövlətimiz tərəfindən hər zaman yüksək qiymətləndirildiyini mütləq qeyd etməliyik. Belə ki, 185 qadın Azərbaycan Respublikasının, 188 qadın Naxçıvan Muxtar Respublikasının fəxri adlarına layiq görülmüş, 171 qadın isə orden, medal və nişanlarla təltif olunmuşdur ki, bu da dövlətimizin biz qadınlara göstərdiyi diqqət və qayğıdır.

***– Elə qurultayda "Gender məsələləri hüquqi müstəvidə: Mövcud vəziyyət, qarşıda duran məsələlər" mövzusunda 2-ci panel müzakirəsində "Naxçıvan Muxtar Respublikasında dövlət qadın siyasətinin inkişafı: reallıqlar və perspektivlər" mövzusunda çıxışınızın da uğurlu təqdimatla yadda qalmasına səbəb də, məncə, Naxçıvanda qadın hərəkatının bu qazandıqları uğurlar idi.***

– İnanırsınız, Mehriban xanım, çıxışdan sonra ölkəmizin digər regionlarından olan xanımlarımız, həqiqətən də, mənə yaxınlaşıb Naxçıvanda qadınlarımızın təhsilə, özünüməşğulluğa cəlbi, qadınlarımızın və gələcək nəslin sağlamlığının qorunması, erkən nikahın, demək olar ki, aradan qaldırılması ilə əlaqədar nə qədər suallar ünvanlayır və görülən işləri təqdirəlayiq qarşılayırdılar. Elə, bu mənada, qurultay təcrübə mübadiləsi baxımından əhəmiyyətli oldu. Mən fürsətdən istifadə edib, xüsusilə də muxtar respublikamızda gender siyasətində qazanılan son uğurlara, belə bir əhəmiyyətli qurultayda layiqincə təmsil olunmağımıza göstərdiyi dəstəyə görə Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi hörmətli Fuad müəllimə dərin minnətdarlığımı bildirmək istəyirəm.

***– Onu da qeyd etmək yerinə düşər ki, hazırda Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatlarının 24,44 faizini qadınlar təşkil edir. Muxtar respublikadan Azərbaycan Milli Məclisinə seçilən 7 deputatdan biri qadındır. Bu özü Naxçıvanda ictimai-siyasi həyatda qadınlarımızın nə qədər aparıcı rol oynadığını, muxtar respublikada da gender siyasətinin uğurla reallaşdırıldığının göstəricisidir. Yeganə xanım, Həbibə xanım, Ali Məclisin deputatları kimi qurultayın ölkəmizdə qadın hərəkatına hansı töhfələr verəcəyi barədə fikirləriniz oxucularımız üçün də maraqlı olar.***

***Yeganə Məmmədova – Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı:*** – Mehriban xanım, bu günlər xalqımız əsl bayram əhvali-ruhiyyəsi yaşayır. Xalqımızın Ümummilli Lideri Heydər Əliyevin 100 illik yubileyi ölkə ərazisində təntənəli şəkildə qeyd olunur. Azərbaycan Qadınlarının VI Qurultayı da Ulu Öndərin 100 illik yubileyinə həsr olunmuşdur. Qurultayda 600-ə yaxın nümayəndə iştirak edirdi. Bu əlamətdar tədbir həm də qalib xalqın, suveren dövlətin zəfərinin Azərbaycan qadınının timsalında, qadın məhəbbəti ilə təcəssümü idi. Qurultayda 15 oktyabr – Prezident cənab İlham Əliyevin hakimiyyətə gəlişinin 20 ili münasibətilə qadın nümayəndə heyətinin təbrikində Azərbaycanda gedən inkişaf, tərəqqi məsələləri geniş şəkildə qeyd olundu. Qalib dövlətin qalib Prezidentinin apardığı işlərə Azərbaycan qadınının dərin yanaşma tərzi və yüksək qiymətləndirməsi böyük marağa səbəb oldu. Sonda qurultay nümayəndələrinin müraciəti qəbul edildi. Yüksək təşkilatçılıqla seçilən qurultayda sərgi və konsert proqramı da təşkil olunmuşdu.

***– Qurultayda Türkiyə, Özbəkistan və Tacikistan respublikalarının dövlət rəsmilərinin, beynəlxalq təşkilatların və xarici dövlətlərin ölkəmizdəki diplomatik nümayəndəlikləri də iştirak edirdi. Və elə toplantının ilk ən böyük uğurlarından biri də mən deyərdim ki, qurultayın elə gedişi zamanı əməkdaşlıq üçün gözəl platforma kimi dəyərləndirilməsi oldu.***

**Yeganə Məmmədova:** – Bəli, BMT-nin Azərbaycandakı rezident əlaqələndiricisi Vladanka Andreyeva Azərbaycan Qadınlarının VI Qurultayının açılış mərasimində bu fikri səsləndirməklə Azərbaycanda qadın hüquqlarının qorunması, gender əsaslı zorakılıqla mübarizə, erkən nikahların qarşısının alınması ilə bağlı QHT-lərlə də sıx əməkdaşlıq edildiyini vurğuladı. Qadınların ictimai həyatda fəal iştirakının təmin olunmasının zəruriliyini və ölkəmizdə bu istiqamətdə bir sıra işlər görülməsi beynəlxalq sferada müsbət qarşılandı. Bu mənada, sizin də dediyiniz kimi,




qurultay gələcək beynəlxalq əməkdaşlığa da bir körpü saldı.

***Həbibə Allahverdiyeva – Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı:*** – Qadınların qurultayında ilk dəfə idi ki, iştirak edirdim. Məhz bu qurultayın Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyinə həsr olunması həm də ilk Qadınlar Qurultayının 25 ilinə təsadüf edən möhtəşəm tədbirdə iştirakım sevindirici idi. Bir də ona görə daha yaddaqalan, daha sevincli, qürurlu idi ki, artıq Müzəffər Ali Baş Komandanımızın başçılığı, qüdrətli ordumuzun rəşadəti nəticəsində torpaqlarımızın alındığı bir ilə təsadüf edirdi. "Ulu Öndər Heydər Əliyevin əsas missiyası: Böyük Qayıdış", "Gender məsələləri hüquqi müstəvidə: Mövcud vəziyyət, qarşıda duran məsələlər", "Sosial-iqtisadi islahatların gender aspektləri. Formal və qeyri-formal məşğulluqda qadın təmsilçiliyi", "Qadın hüquqlarının həyata keçirilməsində çağırışlar və qlobal tendensiyalar" mövzuları üzrə 4 paneldə keçirilən qurultayda fikir söyləyən natiqlər qədim tarixə, mədəniyyətə malik bu torpaqlarda – işğaldan azad olunmuş ərazilərimizdə əhalinin köçürülməsi və orada yaşayan qadınların, uşaqların, ailələrin sosial məsələləri, ailələrin rifahı üçün müxtəlif səpkili layihələrin həyata keçirilməsi, təhsil, mədəniyyət, səhiyyə, qadın hüquqlarının təmini, sosial islahatlarda gender məsələsi və digər sahələrdə nəzərdə tutulan işlərə, məsələlərə toxunuldu, maraqlı müzakirələr aparıldı. Müşahidələrimə əsasən deyə bilərəm ki, qurultayda Prezidentimiz tərəfindən aparılan qadın siyasətinin muxtar respublikamızda da uğurlu icrası, bu sahədə görülən işlər, naxçıvanlı qadınların ictimai-siyasi fəallığı, mədəni sahədə, milli-mənəvi dəyərlərimizin təbliği sahəsində fəaliyyəti haqqında təqdim olunan faktlar beynəlxalq təmsilçilər tərəfindən də maraqla qarşılandı.

***– Qurultayın 200 illik münaqişənin iyirmiillik uzaq gələcəyə hədəflənmiş qətiyyətli siyasi strategiya nəticəsində birdəfəlik həll edildiyi bir dövrdə keçirilməsi xüsusi fəxarət hissi yaşatdı. Qurultay Vətən müharibəsindəki şanlı Zəfərdən sonra suverenliyimizin bərpa edildiyi, antiterror tədbirlərinin erməni qatillərinin cəzalandırılması kimi siyasi yolla da davam etdirildiyi, erməni əsarətindən azad edilmiş torpaqlarımıza Böyük Qayıdışın günbəgün reallaşdırıldığı bir dövrə təsadüf edirdi. Bu qalibiyyət sevincini, fəxarət hissini yaşamağa isə hər kəsdən çox haqqı çatan Azərbaycan anasıdır. Çünki o öz vətənpərvərlik tərbiyəsi ilə Vətən üçün etdiyi fədakarlıqlar, əyilməzliyi, məğrurluğu ilə bütün dünyaya örnəkdir.***

***Gülşad Rüstəmova – şəhid Emin Sadiqovun anası:*** – Mehriban xanım, fikirləriniz bilirsinizmi, mənə nəyi xatırlatdı? Prezident cənab İlham Əliyev Füzuli şəhərinə son səfəri zamanı buraya köçmüş sakinlər və rayon ictimaiyyətinin nümayəndələri ilə görüşdə bu sözləri dedi: ***"Bu gün bu bayram gününü qeyd edərkən, təbii ki, əziz şəhidlərimizin xatirəsinə hamımız bir daha öz dərin ehtiramımızı ifadə edirik. Mən iki gün əvvəl Xankəndinin əsas, mərkəzi meydanında xalqa müraciət edərkən demişdim ki, bu günə görə biz onlara borcluyuq. Bu, həqiqətdir. Dövlətin nə qədər gücü olsa, nə qədər silahı olsa, nə qədər düzgün hərbi əməliyyatlar planlaşdırılsa da, Qələbəni əldə edən əsgərdir, zabitdir. O gedir, o, sinəsini qabağa verir, o, ölümə gedir və bayrağı da qaldıran odur. Onların qəhrəmanlığı bizim yaddaşımızdan heç vaxt silinməməlidir və silinməyəcək. Bu gün onların ruhu şaddır…"*** Mən öz qəhrəman döyüşçüsünə, xalqının igid, qeyrətli oğullarına bunca ali dəyər verən ikinci bir Ali Baş Komandan, dövlət başçısı tanımıram. Bu böyük siyasətin davamıdır ki, muxtar respublikamızda da bütün şəhid ailələrinə, qazilərimizə hər cür diqqət, qayğı göstərilir. Qurultayda digər dövlətlərin təmsilçilərinin sanki heyranlıq dolu baxışları ilə rastlaşanda yaxınlaşıb tanış olmaq istədikləri zaman qalib bir ölkənin məğrur şəhid anası olmaqdan qürur duydum. Bu başucalığını bizə nəsib edən dövlətimizə, bir də bütün şəhid balalarımız da olmaqla Eminimə sonsuz minnətdarlıq duydum ki, bu gün bizi dünyaya bu cür tanıdırlar. Bir Azərbaycan qadını, bir şəhid anası olaraq arzu edirəm ki, dünyamızda həmişə sülh olsun. Analar bir daha ağlamasın. Biz yaşadıqlarımızı bir daha hec bir ana yaşamasın. Dünyada hər kəs şad-xürrəm, azad, suveren yaşasın. Dövlətimizin də istəyi məgər bu deyilmi? Elə qadınlarımızın qurultayında da bu yekdil fikir səsləndi. Allah cəmi şəhidlərimizin məkanını cənnət, ruhlarını şad etsin, qazilərimizə şəfa versin. Allah Azərbaycanımızı qorusun. Dövlətimiz, xalqımız hər zaman yaşasın ki, şəhidlərimiz də yaşasın, unudulmasın. Şəhidlərimizin qanı, canı ilə yoğrulmuş bayrağımız hər zaman ən yüksəklərdə məğrurca dalğalansın.

***– Qurultayın Ulu Öndər Heydər Əliyevə həsr olunması və Azərbaycanın ərazi bütövlüyünün tam bərpa edildiyi vaxtda keçirilməsi mühüm tarixi hadisədir. Tarixi qələbələrimizin qazanılmasını şərtləndirən amillərdən biri də sağlam ailə və bu ailələrdə yetişən vətənpərvər gənclər olub ki, onları da yetişdirən biz analar və qadınlardır. Məhz əsası Heydər Əliyev siyasətinin bəhrələridir ki, Azərbaycanda savadlı, ictimai həyatda fəal iştirak edən qadınlar yetişib***

*Ardı 4-cü səhifədə*

***və Vətəninə, dövlətinə sədaqətli, cəmiyyətə yararlı övladlar yetişdirib.***

***Ləman İbrahimova – “Naxçıvan Muxtar Respublikasının Tibb Müəssisələrinin İdarəetmə Birliyi” publik hüquqi şəxsin Müşahidə Şurasının sədri:*** – Azərbaycan Qadınlarının I Qurultayı 1998-ci il sentyabrın 14-də uzun fasilədən sonra keçirilmişdir. Həmin tarixdən nə az, nə çox düz 25 il ötür. Qurultayda iştirak edən Azərbaycan qadınlarının əksəriyyəti də bu tarixi Ümummilli Lider Heydər Əliyevin iştirakı və həmin tədbirdəki təsirli çıxışı ilə xatırlayır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Azərbaycan qadınlarının VI Qurultayının iştirakçılarına göndərdiyi məktubda ötən 25 il ərzindəki fəaliyyətinə, əməyinə verdiyi yüksək qiymət hər birimiz üçün fəxarət doğurur: ***“Ötən müddətdə cəmiyyətdəki mövqeləri daha da möhkəmlənən qadınlarımız respublikanın sosial-iqtisadi və mədəni-elmi potensialının gücləndirilməsi işinə dəyərli töhfələr bəxş etmişlər. Onların təqdirəlayiq ictimai nüfuzu təməl prinsipləri Heydər Əliyev tərəfindən müəyyən edilmiş dövlət qadın siyasətinin ardıcıl gerçəkləşdirilməsinin nəticəsidir”.***

Qurultay çərçivəsində aktual mövzular üzrə 4 panel iclası keçirildi. Türkdilli dövlətlərin də təmsil olunduğu qurultayda biz naxçıvanlı qadınların iştirakı da sevindirici idi. Belə bir mühüm tədbirin 30 illik münaqişənin sona çatdırıldığı bir dövrdə keçirilməsi biz iştirakçılarda xüsusi qürur hissi yaşatdı. Ulu Öndər Heydər Əliyevin Azərbaycanda qadın siyasətinə böyük önəm verdiyinin və diqqət yetirdiyinin hər zaman şahidi olmuşuq. Bu proses bu gün də uğurla davam etdirilir. Hazırda ölkəmizdə qadınların hüquqları yüksək səviyyədə qorunur və bu sahədə qanunvericiliyin təkmilləşdirilməsi istiqamətində müvafiq tədbirlər görülür. Qadınlarımız həyatın bütün sahələrində fəal iştirak edirlər. Onların rolunun artırılması dövlətimizin prioritet istiqamətlərindəndir. Bu gün sevinirik ki, dövlətimiz qadınların ictimai həyatda iştirakını təmin etməklə bərabər, onların potensialından düzgün istifadəni də diqqətdə saxlayır. Prezident cənab İlham Əliyev də qadınların dövlət idarəçiliyində və cəmiyyətdə rolunu yüksək qiymətləndirir, onların rolunun artırılması istiqamətində müvafiq Dövlət proqramları qəbul olunur.

**Ramilə Seyidova:** – Ləman xanımın sözünə qüvvət, dövlət başçımızın həmin tarixi məktubundakı dəyərli fikirlər hər bir Azərbaycan qadını üçün fəaliyyət kredosuna çevrilməlidir: ***“Hər bir nailiyyətimizdə qadınların böyük zəhməti vardır. Fədakar analarımızın Vətən sevgisinin bariz nümunəsi dövlətimizin suverenliyi və ərazi bütövlüyünün bərpası naminə döyüş meydanındakı unudulmaz rəşadəti ilə xalqımızın mübarizlik ruhunu nümayiş etdirən milli əqidəli gənc nəsildir.***

***Azərbaycan öz tarixinin taleyüklü hadisələrlə zəngin, çox şərəfli bir dövrünü yaşayır. İşğaldan azad edilmiş ərazilərimizdə Böyük Qayıdışla bağlı hazırda genişmiqyaslı müxtəlif layihələr icra olunmaqdadır. Vətənimizin rifahı üçün var qüvvələrini əsirgəməyən qadınlarımız bu nəhəng quruculuq işlərinin fəal iştirakçılarıdır”.***

***– Azərbaycan Qadınlarının VI Qurultayının iştirakçılarının Azərbaycan Respublikasının Prezidentinə müraciətində də əks olunduğu kimi, Azərbaycan qadınının istər siyasətdə, istər ictimai fəaliyyətdə, elm və təhsildə, sosial aspektdə qazandığı bütün uğurların arxasında isə güclü və nüfuzlu dövlətimiz dayanır. Və bunu fəxarət hissi ilə də əlavə etmək istərdim: qalib, müstəqil Azərbaycan dövləti...***

***VI Qurultay Böyük Qayıdış, qadın hüquqlarının təmin edilməsi, sosial-iqtisadi islahatların gender aspekti, gender məsələləri ilə bağlı müasir tendensiyalar və növbəti qurultaya qədərki dövrün hədəflərinə dair mövzular ətrafında maraqlı müzakirələrlə, əsas meyarların müəyyənləşdirilməsi ilə yadda qaldı. Eyni zamanda gender bərabərliyinin tam təmin edilməsi prosesini ləngidən problemlərin həlli yolları da müzakirə edildi. Qurultayın yekununda Qətnamə qəbul edildi.***

**Ramilə Seyidova:** – Mehriban xanım, növbəti qurultayda ötən dövrdə qadınların ictimai-siyasi və həyatımızın digər sahələrində gördükləri işləri yüksək dəyərləndirildi, qarşıda duran vəzifələr müəyyənləşdirildi. On iki bənddən ibarət olan qətnamədə isə qadınların qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanlarında təmsilçiliyinin genişlənməsi, qadınların məşğulluq sahələrindəki təmsilçiliklərinin təşviqi, qadın sahibkarlığının stimullaşdırılması üzrə yeni mexanizmlərin işlənməsi, müvafiq sahədə dövlət orqanları və qeyri-hökumət təşkilatları ilə birgə fəaliyyətlərinin məqsədəuyğunluğu informasiya, kommunikasiya və STEAM sahəsində məlumatlılıq səviyyəsinin daha da yüksəldilməsi, mediada mənfi gender stereotiplərinin aradan qaldırılması, qadın hüquqlarının təşviqində rolunun artırılması, yerlərdə qadınlara qarşı ayrı-seçkilik, gender əsaslı zorakılıq hallarının aradan qaldırılması və digər məsələlər öz əksini tapıb.

Biz komitə olaraq bundan sonra da fəaliyyətimiz ilə bağlı qarşıya qoyulan bu məsələlərin icrası ilə bağlı var gücümüz ilə çalışıb, müstəqil, qalib dövlətimizin daha da inkişafı naminə əlimizdən gələni əsirgəməyəcəyik.

*Azərbaycan qadını tarixin ən keşməkeşli dövrlərində bir xalqın, bir dövlətin taleyin həll edəcək qədər böyük iradə və zəkaya malik olub, adını dünya tarixinə dərin düşüncəsi, qeyri-adi zəka və istedadı, məğrurluq və mətinliyi ilə böyük hərflərlə, şərəflə yazıb. Tarixə ağıllı və qətiyyətli hökmdar, görkəmli ziyalı, mütəfəkkir, incə ruhlu şair, sənətkar, ən əsası isə milli mənliyini və heysiyyətini yaşadan və yaşatdıran Ana kimi düşüb. Bu gün isə qalibiyyət məğrurluğunu yaşamaqla yanaşı, şəhid övladlarının qanı ilə yuyulub halallaşan doğma torpaqları isti nəfəsi ilə dirçəltməyin, Böyük Qayıdışın ilk addım səslərini, həyat ritmini ürək döyüntüləri ilə çulğalaşdırmağın sevincini yaşayır. Azad Vətənimizin azad qadınları sabahkı xoşbəxt gələcəyin tarixini yazır. Bu yolda ruhumuz, gücümüz heç zaman tükənməsin!*

**✍ Mehriban SULTAN**
***Naxçıvan Muxtar Respublikasının Əməkdar jurnalisti***

## Naxçıvanda məişət zorakılığına qarşı mübarizə üzrə yaradılmış monitorinq qrupları fəaliyyət göstərəcək



***Monitorinq qruplarının üzvləri üçün təlim keçən Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin Aparat rəhbəri Ceyran Rəhmətullayeva qəzetimiz üçün müsahibə verib:*** – Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin təşkilatçılığı ilə monitorinq qrupları ilə keçirilən görüşün əsas məqsədi Azərbaycan Respublikasında məişət zorakılığına qarşı qanunun təbliğatı ilə bağlıdır. Bildiyiniz kimi, 2021-2023-cü illər üzrə Azərbaycan Respublikasında məişət zorakılığının aradan qaldırılması üzrə milli fəaliyyət planı mövcuddur. Milli fəaliyyət planında yerli monitorinq qruplarının fəaliyyətinin artırılması, məişət zorakılığına qarşı səylərin gücləndirilməsi üzrə müxtəlif tədbirlər nəzərdə tutulur. Naxçıvan Muxtar Respublikasında artıq bir müddətdir ki, məişət zorakılığına qarşı mübarizə üzrə yaradılmış yerli icra hakimiyyətləri orqanlarında monitorinq qrupları fəaliyyətə başlayıb. Monitorinq qruplarının bacarıqlarının artırılması və onların bu sahədə olan problemlərinin aradan qaldırılması və qanunun icra mexanizmlərinin müzakirə edilməsi məqsədilə bu gün təlim keçdik. Onu da qeyd edim ki, respublika üzrə yaradılmış uşaqlara və qadınlara qarşı zorakılıq üzrə monitorinq qruplarında müxtəlif qurumların nümayəndələri iştirak edir. Burada onlar multidisiplinar komanda formasında həm yerli icra hakimiyyəti orqanlarının nümayəndələri, psixoloqlar, sosial işçilər, təhsil və səhiyyə müəssisələrinin nümayəndələri zorakılığın baş verdiyi andan nəticələrin aradan qaldırılması ilə bağlı işlər aparmalıdırlar. Sevindirici haldır ki, Naxçıvanda bütün rayonlarda, demək olar ki, monitorinq qrupları yaradılıb və burada yüksək səviyyədə iştirak təmin olunub. Onların bizə qanunda onlar üçün aydın olmayan və yeni bir yanaşmaların tətbiq edilməli olduğu sahələrlə bağlı ünvanladığı sualları cavablandırdıq. Həmçinin onlara yeni təlimatlar da veririk. Burada əsas məqsədimiz həm uşaq hüquqları ilə bağlı, həm qadınlara qarşı ayrı-seçkilik üzrə BMT-nin konvensiyaları sahəsində dövlətin götürdüyü öhdəliklərin yerinə yetirilməsi, növbəti dövr üçün tövsiyələrin yerinə yetirilməsində hansı işlərin vacib olduğunu da onların diqqətinə çatdırdıq.

**✍ Gülcamal TAHİROVA**

## Seminar keçirilib



Naxçıvan Muxtar Respublika Xəstəxanasında Türkiyə Respublikasının Diclə Universitetinin Uşaq Sağlığı və Xəstəlikləri bölümünün professoru, həkim-pediatr İlyas Yolbaşın iştirakı ilə seminar keçirilib.

Seminarda muxtar respublikanın səhiyyə müəssisələrində çalışan neonatoloqlar, pediatrlar, ailə həkimləri və Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsinin tələbələri iştirak ediblər. Seminardan sonra iştirakçıların uşaq sağlamlığı ilə bağlı sualları cavablandırılıb.

Bildirək ki, təlimlər üç ay davam edəcək və sonda iştirakçılara sertifikatlar veriləcək.

Təlimdən sonra professor İlyas Yolbaşla həmsöhbət olduq. O bildirdi ki, qardaş ölkədə olmaqdan çox məmnundur. Burada olacağı üç ay ərzində Tibb fakültəsində uşaq xəstəlikləri barədə mühazirələr oxuyacaq. Həkim onu da qeyd etdi ki, səhiyyə ocaqları ilə tanış olub: “Xəstəxanalar çox yaxşı qurulub. İmkanlar genişdir. Burada istənilən əməliyyatı icra etmək üçün imkan var”. Həkim onu da bildirdi ki, Naxçıvan Sağlamlıq Mərkəzində xəstə qəbulu da həyata keçirir.

Professor İlyas Yolbaş diyarımızla bağlı təəssüratlarını belə ifadə etdi: “Naxçıvan türk xalqları üçün dəyərli bir məkandır, qədim şəhər öz təmizliyi və müasirliyi ilə də insanda xoş təəssürat yaradır. Yeməklər və adət-ənənələr də yaxın olduğu üçün doğmadır Naxçıvan. Sərin “Badamlı”, “Sirab” suyunuz isə daim masamın üstündə olur”.

**✍ Ramiyyə ƏKBƏROVA**

*Yeni nəşrlər*

## Şəhidlərimiz haqqında müfəssəl nəşr

Nəfis tərtibatlarla yenicə işıq üzü görən “Ordubadın Zəfər zirvəsi” kitabının müəllifi Yəhya Babanlıdır. Yəhya müəllim qəzetə müsahibəsində yeni nəşr haqqında düşüncələrini bölüşdü: – “2019-cu ildə Ordubad şəhidləri ilə bağlı “Qapıcıq zirvəsinə yüksələnlər” adlı ilk kitabımız çapdan çıxıb. 200 səhifəlik bu kitabda Ordubad bölgəsindən olan 45 şəhid haqqında bioqrafik məlumat, habelə onların inşa yazıları, müvafiq məktubları, doğmalarının, müəllimlərinin, dostlarının xatirələri yer almışdı. “Ordubadın Zəfər zirvəsi” kitabı da onun davamıdır. Hər iki kitabın ərsəyə gətirilməsində əsas məqsəd şəhidlərimizi yaşatmaq, onları gənc nəslə tanıtmaq, onlara vətənpərvərlik hissi, mübarizlik əhvali-ruhiyyəsi aşılamaq, həmçinin şanlı tariximiz ilə bağlı yaddaşımızı möhkəmləndirmək və ümumilikdə, maarifləndirmə işinə dəstək göstərməkdir. Kitabda 13 Vətən müharibəsi şəhidi, ümumilikdə, Vətənin azadlığı, müstəqilliyi, suverenliyi uğrunda canından keçən 59 şəhidimiz haqqında ətraflı məlumat verilib.

“Tusi” Xeyriyyə Cəmiyyətinin xətti ilə çap olunan kitabın ilk səhifəsində Azərbaycan Respublikasının Dövlət Himni, Ümummilli Lider Heydər Əliyev və Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Naxçıvan və naxçıvanlılar haqqında dəyərli fikirləri yer alıb.




Kitabın “Zəfərə gedən yol” və “Zirvəyə aparan yol” məqalələrində Xocalı soyqırımı, 2020-ci ildə əldə edilən böyük Zəfər, eləcə də Ulu Öndər Heydər Əliyevin fəaliyyətinin Naxçıvan dövrü, həmin dövrdə Azərbaycanın gələcəyi üçün qəbul edilən qərarlar haqqında söhbət açılır.

“Zəfərdəkilər” bölməsində 2020-ci il sentyabrın 27-də başlanan və 44 gün davam edən Vətən müharibəsi şəhidləri haqqında məqalələr yer alıb. Onların sırasında Prezident cənab İlham Əliyevin müxtəlif orden və medallarla təltif etdiyi şəhidlərimiz haqqında geniş informasiyalar verilib.

Nəşrin diqqəti cəlb edən “Məktublar, xatirələr, şeirlər” bölməsində şəhidlərimizin ailə üzvlərinin, tanışlarının, müəllimlərinin düşüncələrinin yer aldığı məqalələr müfəssəl məlumat mənbəyidir. Ölümü ilə ölümsüzlüyə qovuşan şəhidlərimizə həsr olunan məqalələrdə şəhidlərimizin vətənpərvərlik və qəhrəmanlıq dolu həyatı və fəaliyyəti geniş şəkildə işıqlandırılıb. Kitabda bu yazılarla yanaşı, şəhidlərimizə həsr olunmuş şeirlər də diqqəti çəkir. Şeirlərdə Vətən sevgisi, qalib Azərbaycanın aydın mənzərəsi yer alıb.

Kitabın “Bir millət, iki dövlət” bölməsində Ordubad rayon Dırnıs kənd tam orta məktəbinin müəllimi Rayət İmaməliyevin yazdığı “Müqəddəs and – Həsəni Bəşir!” məqaləsində 1918-ci ildə Ordubadda erməni daşnaklarının hücumunun qarşısını alan, Qafqaz İslam Ordusunun alayında xidmət edən türk subayı Həsəni Bəşirin igidliyindən, qəhrəmanlığından bəhs edilir. Kitabın sonunda Ordubad rayonu üzrə şəhid statusu verilmiş Vətən övladları haqqında qısa məlumat öz əksini tapıb.

Bu yazıları qürur və iftixar hissi keçirmədən oxumaq mümkün deyil. Kitabdakı yazıların bir ortaq məqamı var: Vətən! Vətənin bütövlüyü, azadlığı, müstəqilliyi... Bu uğurda gözünü qırpmadan öz əziz canını qurban edən qəhrəman oğul və qızlarımız. Vətənə məhəbbətin, sevginin ən ali örnəyi olan şəhidlərimizin şücaəti, cəsarəti, igidliyi, qeyrəti gənclərimizə örnəkdir.

Böyük zəhmət hesabına ərsəyə gələn “Ordubadın Zəfər zirvəsi” kitabı da məhz bu müqəddəs məramа xidmət edir. Hər bir azərbaycanlı gəncə onu oxumağı tövsiyə edirik. Çünki hər bir gənc burada öz qəhrəmanını tapa biləcək.

**✍ Güntac ŞAHMƏMMƏDLİ**

### Naxçıvan “Səyyar Dəstə Açıq Səhmdar Cəmiyyəti”nin Səhmdarlarının nəzərinə!

28 oktyabr 2023-cü ildə cəmiyyətin səhmdarlarının növbədənkənar ümumi yığıncağı keçiriləcəkdir.

Gündəlikdə duran məsələlər:

1. *Cəmiyyətin fəaliyyəti ilə bağlı hesabat*
2. *Cəmiyyətin qiymətli kağızlarının dövriyyədən çıxarılması və ləğv edilməsi*
3. *Cari məsələlər.*

### Elan

Naxçıvan Muxtar Respublikasının Hərracların Təşkili üzrə Auksion Mərkəzi tərəfindən 25 oktyabr 2023-cü il tarixdən 20 noyabr 2023-cü il tarixədək saat $11^{00}$-da Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Şahbuz Rayon İdarəsinin 15 faiz əmək kollektivi üzvlərinə və onlara bərabər tutulan şəxslərə güzəştli satış qiyməti 13174.9 (on üç min yüz yetmiş manat doxsan qəpik) müəyyən olunaraq özəlləşdirilməsi üçün açıq hərraca çıxarılacaqdır.

Əlavə məlumatı Naxçıvan Muxtar Respublikasının Hərracların Təşkili üzrə Auksion Mərkəzindən ala bilərsiniz.

***Əlaqə telefonu: 545-01-38***

### *İtmişdir*

Şərur rayonu, Danyeri kənd sakini Hüseynov Gəray Məmməd oğlunun adına olan JN-756A nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Əli Cabbarov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 626